**https://doi.org/10.58225/tim.2025-3-305-313**

**V.Y.Əsgərov**
***doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti***
***ORCID 0009-0002-6673-7964***
***vasif.askerlii@gmail.com***

*Məqalə redaksiyaya daxil olub 03.10.2025*
*The article was received by editorial board on 03.10.2025*
*Статья принята к печати 03.10.2025*

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ SUBSİDİYALAŞDIRILMASININ MÖVCUD MEXANİZMİ

**Xülasə**

*Kənd təsərrüfatı subsidiyaları dövlətin iqtisadi siyasətində mühüm rol oynayır və əsas məqsədi kənd təsərrüfatı istehsalını stimullaşdırmaq, məhsuldarlığı artırmaq, ərzaq təhlükəsizliyini təmin etməkdir. Subsidiyalar iki əsas qrupa bölünür: istehlakçıya yönələn (ərzaq qiymətlərinin azaldılması) və istehsalçıya yönələn (istehsalın dəstəklənməsi). Azərbaycanda bu dəstək mexanizmi əsasən üç istiqamətdə həyata keçirilir: vergi və gömrük güzəştləri, birbaşa dövlət subsidiyaları və damazlıq heyvanların güzəştlə satışı. Vergi və gömrük güzəştləri kənd təsərrüfatı texnikası, avadanlıq, gübrə, toxum və heyvanların idxalında tətbiq olunur. Birbaşa dövlət dəstəyi bitkiçilik və heyvandarlıq sahələrində subsidiya ödənişlərini əhatə edir və elektron sistem vasitəsilə şəffaf şəkildə idarə olunur. Damazlıq heyvanların lizinq yolu ilə 50% güzəştli satışı maliyyə yükünü azaldır və keyfiyyətli heyvan istifadəsini təşviq edir. Dövlət dəstəyinin operativ və şəffaf həyata keçirilməsi üçün "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) yaradılmışdır. EKTİS kənd təsərrüfatının bütün mərhələlərini əhatə edir, subsidiya ödənişlərini izləyir, monitorinq aparır və dövlət dəstəyinin səmərəliliyini artırır. Azərbaycanda subsidiya mexanizmi fermerlərin gəlirlərini artırmaq, resurslardan səmərəli istifadəni təmin etmək və kənd təsərrüfatında davamlı inkişafı dəstəkləmək məqsədilə elektron, şəffaf və sistemli şəkildə tətbiq olunur.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, subsidiya məbləğləri, müasir mexanizmlər, dövlət dəstəyi.*

## GİRİŞ

Kənd təsərrüfatı subsidiyaları müxtəlif dövlət iqtisadi dəstəkləri ilə xarakterizə olunur. Onlar əsasən iki ümumi qrupa bölünür: birincisi istehlakçılar üçün ərzaq qiymətlərinin azaldılması, ikincisi kənd təsərrüfatı istehsalının dəstəklənməsi. Birinci qrup daha çox inkişaf etməkdə olan ölkələrdə tətbiq olunur. Məsələn, Pakistanda ərzaq paylanması, Hindistanda qiymətlərin dövlət tərəfindən tənzimlənməsi. İkinci qrup isə əsasən inkişaf etmiş ölkələrdə görülür. Məsələn, Kanadada istehsalın idarə olunması və sabit qiymət sistemi, ABŞ-da torpaq istifadəsinin məhdudlaşdırılması, kənd təsərrüfatı kredit və sığortasının subsidiyalaşdırılması. Subsidiyalar arasında açıq və gizli formalar da var. Açıq subsidiyalar dövlət büdcəsindən birbaşa ödənişlərlə həyata keçirilir. Məsələn, dövlət artıq məhsulu alır və ya fermerlərə torpağı əkib-becərməməsi üçün pul ödəyir. Gizli subsidiyalar isə qiymətlərin süni şəkildə azaldılması ilə bağlıdır. Buraya valyuta məzənnəsinin dəyişdirilməsi, qiymətlərin məhdudlaşdırılması, ticarətə qoyulan məhdudiyyətlər daxildir. Məsələn, hökumət milli valyutanı süni şəkildə yüksək saxladıqda, idxal məhsulları ucuzlaşır. Bu, istehlakçıya fayda verir, amma fermeri ziyana salır, çünki məhsulunu beynəlxalq bazarda sata bilmir.

Dövlətin bazar iqtisadiyyatına müdaxiləsinin əsas məqsədi iqtisadiyyatın o hissələrinin inkişafı üçün əlverişli şərait yaratmaqdır ki, bu sahələr obyektiv səbəblərə görə ümumi iqtisadi artım sürətinə xarici dəstək olmadan çata bilmir. Bu sahələrdən biri də kənd təsərrüfatıdır. Kənd

təsərrüfatında dövlət müdaxiləsi iqtisadi siyasətin bir hissəsi olub, bazar mexanizmini düzəltmək, tamamlamak və bəzi hallarda məhdudlaşdırmaq məqsədilə planlı və məqsədli tədbirlərdən ibarətdir. Kənd təsərrüfatında dövlət müdaxiləsi onun xüsusi xüsusiyyətləri və iqtisadi rəqabətin məhdud olması ilə əlaqədardır. Bu xüsusiyyətlər dörd qrupa bölünür: torpaq faktoru, kənd təsərrüfatı istehsalı, kənd təsərrüfatı bazarları və əmək faktoru.

**a) Torpaq faktoru**

Kənd təsərrüfatının əsas xüsusiyyətlərindən biri istehsal proseslərinin torpaqla sıx bağlı olmasıdır. Torpaq əmək və kapitaldan fərqli xüsusiyyətlərə malikdir. Məsələn, torpağın təklifi elastik deyil və onu əvəz edəcək alternativ yoxdur. Torpaq hərəkətsizdir, yəni onu daha səmərəli istifadə olunacaq yerə köçürmək mümkün deyil. Torpaq həm qida istehsalında iştirak edir, həm də ekoloji və təbii funksiyaları yerinə yetirir ki, bu funksiyalar bəzən bir-birinə zidd olur.

**b) Kənd təsərrüfatı istehsalı**

Kənd təsərrüfatı istehsalı torpaqla bağlıdır və təbiət qanunlarından asılıdır. Bu, digər sahələrlə müqayisədə risk və qeyri-müəyyənliyi artırır. Kənd təsərrüfatı istehsalı mövsümlərə bağlıdır, kapital dövriyyəsi digər sahələrə nisbətən yavaşdır və bu da istehsal amillərinin effektivliyini azaldır. İstehsalın unikal xüsusiyyəti həm də istehsalçıların kiçik, dağınıq və son alıcıdan uzaqda olmasıdır. Eyni zamanda, emalçılar və vasitəçilər bazarında oligopoliyalaşma meyli vardır.

**c) Kənd təsərrüfatı bazarları**

Kənd təsərrüfatı bazarlarının da özünəməxsus xüsusiyyətləri var. Burada tələb qiymət və gəlir dəyişikliklərinə nisbətən elastik deyil. Qısa müddətdə kənd təsərrüfatı məhsullarının təklif elastikliyi tələb elastikliyindən yüksək olur. Bu isə qiymətlər düşdükdə məhsul təklifinin artmasına səbəb olur. Lakin kənd təsərrüfatı istehsalının uzun müddətdə də yerdəyişmə imkanlarının məhdud olması, kənd təsərrüfatı məhsullarının təklifini sənaye məhsullarına nisbətən hələ də elastik olmayan vəziyyətdə saxlayır.

**d) Əmək faktoru**

Kənd təsərrüfatında xüsusi bir istehsal faktoru yəni fermer icması iştirak edir. Fermerlərin dilemması odur ki, onların təsərrüfatı həm şirkət, həm də ailə evinin funksiyalarını yerinə yetirir. Buna görə iqtisadi stimulalara reaksiyalar sənaye və xidmət sahələrindən fərqlidir. Kənd təsərrüfatında əmək faktoru spesifik (ailəvi) iş strukturu və məhdud hərəkətlilik ilə xarakterizə olunur. Bu o deməkdir ki, ailə təsərrüfatlarının mənfəətliliyi azalsa belə, işçi sayını azaltmaqla istehsal xərclərini azaltmaq mümkün deyil. Fermerlər ailə ilə işlədikdə, heç bir gəlir əldə etməsələr də, sadəcə ailənin əsas ehtiyaclarını ödəmək üçün fəaliyyətlərini davam etdirirlər. Kənd təsərrüfatının bu xüsusi xüsusiyyətləri səbəbindən, xüsusilə inkişaf etmiş ölkələrdə, dövlət geniş və mürəkkəb maliyyə siyasəti vasitələri ilə müdaxilə edir.

Ənənəvi olaraq, kənd təsərrüfatı siyasətinin alətləri iki qrupa bölünür:

- Bazar alətləri – kənd təsərrüfatı məhsullarının təklifi, tələbi və qiymətlərinə təsir edən tədbirlər.
- Bazar xarici alətlər – kənd təsərrüfatı məhsullarının təklifi və fermerlərin gəlirlərinə təsir edən tədbirlər.

Bir çox alət eyni zamanda həm qiymətə, həm təklif və tələbə təsir etdiyi üçün onları bir qrupa daxil etmək çətin ola bilər. Fermerlərin gəliri istehsal həcmi, əlavə dəyər, qiymət səviyyəsi, əmək qüvvəsi və mənfəət transferləri kimi bir çox amillərdən asılıdır. Hazırda qiymət dəstəyi və təklifin stimullaşdırılması kimi bazara güclü müdaxilə edən alətlər tədricən azaldılır. Bunun yerinə birbaşa gəlir subsidiyaları, istehsalın məhdudlaşdırılması, infrastruktur yatırımları və kənd təsərrüfatında işləyənlərin digər sahələrə yönləndirilməsi kimi alətlər daha çox istifadə olunur.

## ƏSAS HİSSƏ

### Azərbaycanda kənd təsərrüfatının subsidiyilaşdırılması

Respublikamızda qeyri-neft sektorunun inkişafının təmin edilməsi və iqtisadi yüksəlişin təmin edilməsi məqsədilə kənd təsərrüfatına davamlı dövlət tərəfindən investisiyalar edilməkdədir. Azərbaycan Respublikasının Kənd təsərrüfatı Nazirliyinin hesabatlarına əsasən femerlərə dəstək 3 istiqamətdə həyata keçirilir. Bunlar aşağıdakılardır:

- vergi və gömrük güzəştləri;
- birbaşa dövlət dəstəyi;
- güzəştli şərtlərlə damazqlıq heyvanların lizinqi.

*Vergi və gömrük güzəştləri*

*Gömrük güzəştləri*

Azərbaycan Respublikasının Nazirlər Kabineti 2005-ci il 31 yanvar tarixli 11 və 12 nömrəli qərarlarında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində istifadə olunan avadanlıqların idxalı zamanı gömrük rüsumu və əlavə dəyər vergisindən azad olunacağını müəyyən edib (https://e-qanun.az/framework/15661) . Bu qərara əsasən, lizinq müqaviləsinin obyekti olan əksər texnika və maşınlar, məsələn, traktorlar, suvarma qurğuları, torpağın hazırlanması və işlənməsi üçün katoklar, kənd təsərrüfatı bitkilərinin yığılması və döyülməsi üçün maşın və mexanizmlər, otbiçənlər, yumurta, meyvə və digər məhsulların təmizlənməsi, sortlaşdırılması və çıxdaş edilməsi üçün avadanlıqlar, sağıcı aparatları, südün emalı üçün avadanlıqlar, toxumların yetişdirilməsi üçün avadanlıqlar, inkubatorlar və bruderlər, taxıl və paxlalı bitkilərin emalı üçün avadanlıqlar idxal edilərkən vergidən azaddırlar. 2011-ci il 25 yanvar tarixli 17 nömrəli qərara əsasən isə ölkəyə idxal olunan bəzi heyvanlar, toxumlar, gübrələr, aqrokimya məhsulları və kənd təsərrüfatı texnikası da gömrük və əlavə dəyər vergisinə cəlb edilmir. Bu siyahıya quruducular, süd separatorları, suyun süzülməsi və təmizlənməsi üçün qurğular, butulkaların yuyulması və qurudulması üçün avadanlıqlar, suvarma qurğuları, traktorlara qoşulan və ya yedəklənən qurğular, pnevmatik qaldırıcılar, konveyerlər, torpağın işlənməsi üçün maşınlar və digər kənd təsərrüfatı texnikası daxildir. Bundan əlavə, Azərbaycan Respublikasının Dövlət Taxıl Fondu üçün idxal olunan taxıl və taxıl emalı məhsulları da gömrük rüsumu və əlavə dəyər vergisindən azaddır. Bu güzəştlər kənd təsərrüfatı sahəsində istehsal və emalın stimullaşdırılması, texnika və avadanlıqların yenilənməsi, məhsuldarlığın artırılması və daxili bazarın qorunması məqsədini daşıyır (https://www.stat.gov.az/source/agriculture/).

*Vergi güzəştləri*

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə edilən dəyişikliklər (22 noyabr 2013-cü il, 824 nömrəli qanunu) ilə 2014-cü il yanvarın 1-dən etibarən beş il müddətinə kənd təsərrüfatı ilə məşğul olan hüquqi və fiziki şəxslər bəzi vergilərdən azad edilib. Bu güzəştlər torpaq vergisi istisna olmaqla tətbiq olunur.

Azad olunan vergilər aşağıdakılardır:

- kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslərin bu fəaliyyətindən əldə etdiyi gəlirə tətbiq olunan gəlir vergisi;
- kənd təsərrüfatı məhsullarını istehsal edən şəxslərin satışdan əldə etdikləri dövriyyəyə tətbiq olunan əlavə dəyər vergisi;
- istehsal prosesində istifadə olunan əmlaka görə tətbiq olunan əmlak vergisi;
- bundan əlavə, kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən satışdan əldə edilən mədaxil, 2014-cü il yanvarın 1-dən etibarən beş il müddətinə sadələşdirilmiş verginin vergitutma obyektinə daxil edilmir.

Bu vergitutma güzəştləri, kənd təsərrüfatı fəaliyyətini stimullaşdırmaq, istehsalın rentabelliyini artırmaq, kiçik və orta təsərrüfatların maliyyə yükünü azaltmaq və məhsul istehsalını təşviq etmək məqsədini güdür.

*Birbaşa dövlət dəstəyi*

Azərbaycan Respublikasının Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qanunu" aqrar sahədə dövlət dəstəyinin əsas mexanizmini müəyyən edir (https://e-qanun.az/framework/42750 ). Bu Qayda kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiya verilməsinin prinsiplərini və şərtlərini müəyyənləşdirir. Məqsəd subsidiyaların şəffaf, hesabatlı və səmərəli şəkildə ödənilməsini təmin etməkdir. Bu sistem vasitəsilə fermerlər, tədarükçülər və təchizatçılar müraciətlərini onlayn təqdim edirlər. Fermerlərin müraciətləri yalnız sistemdə qeydiyyatdan keçdikdən sonra qəbul olunur.

Qanuna görə, subsidiya hüququ başqa şəxsə ötürülə bilməz. Qayda bitkiçilik və heyvandarlıq sahələrini əhatə edir. Bitkiçilik sahəsində subsidiyalar əkin sahəsinin ölçüsünə, istifadə olunan istehsal vasitələrinə və tətbiq olunan əkin əmsallarına görə hesablanır. Əkin subsidiyasının 25 faizi nağd şəkildə ödənilir, 75 faizi isə kənd təsərrüfatı istehsal vasitələrinin alınması və texniki xidmətlər üçün istifadə olunur. Dincə qoyulmuş torpaq subsidiyası torpağın münbitliyini artırmaq və alaq otlarını azaltmaq məqsədilə verilir. Məhsul və toxum subsidiyaları isə bitkiçilik məhsullarının və sertifikatlı toxumların satışına əsaslanır. Heyvandarlıq sahəsində heyvan, arı və barama subsidiyaları mövcuddur. Heyvan subsidiyası sağlam buzov və balaqlara görə, arı subsidiyası hər arı ailəsinə görə, barama subsidiyası isə istehsal edilmiş yaş baramanın hər kiloqramına görə verilir. Bu subsidiyalar yalnız müvafiq sertifikatlara malik mütəxəssislər və qeydiyyata alınmış müəssisələr vasitəsilə həyata keçirilir.

Qanun subsidiyaların monitorinqini və qiymətləndirilməsini də tənzimləyir. Monitorinq çarpaz, yerüstü və yerində müşahidə üsulları ilə aparılır. Əkin sahəsi və heyvandarlıq göstəricilərində fərqlər aşkar olunarsa, subsidiyanın məbləği azaldılır və ya ödəniş tam dayandırılır. Fermerlər monitorinq nəticələrinə etiraz edə bilirlər. Etiraz edilməzsə və ya yanlış məlumat verilibsə, qanunvericiliyə uyğun inzibati məsuliyyət tətbiq olunur. Qanunda həmçinin subsidiyaların elektron ödəniş mexanizmini müəyyən edir. Fermerlərin subsidiyalarının məbləği kart hesablarına köçürülür və vəsait yalnız müəyyən edilmiş məqsədlər üçün istifadə olunur. İstifadə edilməyən məbləğ geri qaytarılır və növbəti illərdə ödənişlərə təsir göstərir. Hər il subsidiya alan fermerlərin siyahısı və ödənilən məbləğlər Azərbaycan Kənd Təsərrüfatı Agentliyinin rəsmi internet saytında dərc olunur. Bu tədbirlər subsidiyaların şəffaf və hesabatlı şəkildə həyata keçirilməsini təmin edir. Qanun inzibati və məhkəmə qaydasında mübahisələrin həllini də tənzimləyir.

Beləliklə, bu aqrar sahədə dövlət dəstəyinin sistemli, elektron və şəffaf şəkildə verilməsini təmin edir. O, fermerlərin və digər iştirakçıların hüquqlarını qoruyur və subsidiyaların düzgün işləməsi üçün nəzarət və monitorinq prosedurlarını müəyyənləşdirir.

*Damazlıq heyvanların güzəştlə satışı*

Damazlıq heyvanların 50 faiz güzəştlə lizinq yolu ilə heyvandarlıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarına satılması qanunu Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 21 avqust tarixli, 3000 nömrəli Sərəncamına əsasən hazırlanmışdır (https://e-qanun.az/framework/15301). Bu qayda kənd təsərrüfatı istehsalçılarını damazlıq heyvanlarla təmin etmək üçün əlavə dəstək mexanizmini müəyyən edir və onların maliyyə yükünü azaltmağa yönəlib. Güzəştli lizinq yolu ilə damazlıq heyvan almaq istəyən istehsalçı əvvəlcə rayon (şəhər) kənd təsərrüfatı idarəsinin komissiyasına ərizə təqdim edir. Komissiya ərizəyə əsasən üç iş günü ərzində istehsalçının damazlıq heyvanları saxlaması üçün şəraitini, yem təminatını və zoobaytar tədbirlərinin aparılmasını yerində yoxlayır. Yoxlamadan sonra istehsalçıya damazlıq heyvanın lizinq yolu ilə satılıb-satılmaması barədə yazılı rəy verilir. Ərizə və komissiyanın rəyini alan istehsalçı Cəmiyyətə müraciət edir. Ərizəyə həmçinin şəxsiyyətini təsdiqləyən sənədlər (dövlət qeydiyyatından keçməsi barədə şəhadətnamə və ya şəxsiyyət vəsiqəsi) əlavə olunur.

Cəmiyyət iki iş günü ərzində ərizəni və sənədləri ekspertizadan keçirir. Daha sonra istehsalçıya damazlıq heyvanın lizinq yolu ilə satışının şərtləri barədə məlumat və ödənişin aparılacağı bank hesabını göstərən hesab-faktura təqdim olunur. İstehsalçı hesab-fakturaya əsasən damazlıq heyvanların güzəştli dəyərinin 50 faizini və sığortanın tam dəyərini qabaqcadan ödəniş edir. Ödənişi təsdiqləyən bank sənədləri Cəmiyyətə təqdim olunur. Bu sənədlərə əsasən Cəmiyyət və istehsalçı arasında damazlıq heyvanların alqı-satqısı qanunvericiliyə uyğun həyata keçirilir və üç il müddətinə lizinq müqaviləsi bağlanır. İstehsalçı lizinq yolu ilə aldığı damazlıq heyvanı dəyəri tam ödənilənədək sata, bağışlaya və kəsə bilməz. Heyvanın saxlanması üçün istifadə olunan yer (tövlə) zoobaytar tələblərinə cavab verməli və yem bazası ilə təmin olunmalıdır.

Qanun həmçinin istehsalçının məsuliyyətsizliyi ilə bağlı tədbirləri də müəyyən edir. Əgər lizinq dövründə damazlıq heyvan istehsalçının səhlənkarlığı nəticəsində tələf olarsa, ödənilməmiş qalıq dəyəri istehsalçı tərəfindən ödənilməlidir.

Beləliklə, bu qayda damazlıq heyvanların istehsalçılara güzəştli şərtlərlə satılmasını təmin edir, heyvanların saxlanması və istifadə qaydalarını tənzimləyir, eyni zamanda istehsalçıların məsuliyyətini konkret şəkildə müəyyən edir. Bu mexanizm həm maliyyə dəstəyini təmin edir, həm də heyvandarlıq sahəsində keyfiyyətli damazlıq heyvanların istifadəsini təşviq edir (https://www.agro.gov.az/az/doevlet-desteyi) .

*EKTİS*

Fermerlərə dəstək eləcə də,operativlik və şəffaflıq prosesinin həyata keçirilməsi məqsədilə ölkəmizdə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) yaradılmışdır. "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əsas fəaliyyət prinsiplərini həyata keçirən vahid informasiya platformasıdır. Sistem fermerlərə yaxınlıq, şəffaf və səmərəli idarəetmə, innovasiyaların tətbiqi prinsiplərini özündə ehtiva edir. EKTİS kənd təsərrüfatı zəncirinin bütün mərhələlərini əhatə edən və daxili, xarici sistemlərlə inteqrasiya imkanlarını genişləndirən bir platformadır. Sistem, kənd təsərrüfatının bütün sahələrini əhatə etməklə, proseslərin məntiqi əlaqəliliyini təmin edir. Bu, fermerlərin və kənd təsərrüfatı məhsullarının istehsalından satışa qədər bütün mərhələlərin izlənməsini və analizini mümkün edir. EKTİS-də həmçinin proseslərin real vaxt rejimində monitorinqi, nəzarət mexanizmlərinin qurulması və müasir texniki həllərin tətbiqi imkanları mövcuddur. Sistemin əsas funksiyalarından biri qərarverməni dəstəkləməkdir. EKTİS analitik hesabatlar hazırlayır, gələcək inkişaf üçün planlama və proqnozların əsasını təşkil edən modellər qurur. Sistem eyni zamanda "Big Data" texnologiyasının tətbiqi ilə böyük həcmdə məlumatların toplanması və işlənməsini təmin edir.

EKTİS-in əsas prinsipləri aşağıdakı qeyd edilmişdir:

- fermerlərə yaxınlıq və onların ehtiyaclarının diqqət mərkəzində saxlanması;
- şəffaf və səmərəli idarəetmənin təmin olunması;
- innovativ həllərin tətbiqi və texnologiyaların inkişafı;

EKTİS-in hədəfləri aşağıdakılardır:

- aqrar sahədə dövlət dəstəyinin şəffaflığının və operativliyinin artırılması;
- dövlət siyasətinin bütün istiqamətlər üzrə innovativ dəstək ilə həyata keçirilməsi;
- kənd təsərrüfatı torpaqları və digər təbii resursların səmərəli idarə edilməsi;
- ərzaq və qida təhlükəsizliyinin təmin olunması;
- kənd təsərrüfatı məhsul istehsalçılarının gəlirlərinin artırılması;
- fermerlər üçün informasiya və məsləhət xidmətlərinin effektivliyinin yüksəldilməsi;
- e-dövlət xidmətlərinin göstərilməsi üçün zəruri texniki bazanın yaradılması.

EKTİS-in strukturu və funksiyaları aşağıdakılardır:

- məlumatların daxil edilməsi və sistemə yenilənməsi;
- fermer ilə Kənd Təsərrüfatı Nazirliyi arasında elektron əlaqənin qurulması;
- elektron xidmətlərin istifadəsi və kənd təsərrüfatı subyektlərinin sərbəst fəaliyyəti;
- yerli idarə və nazirlik əməkdaşlarının proseslərə nəzarət və idarəetməsi;
- sistemin digər informasiya sistemləri ilə inteqrasiyası və məlumatların əldə edilməsi.

Subsidiyaların idarə edilməsi EKTİS-də xüsusi əhəmiyyət daşıyır.EKTİS-də mövcud olan elektron xidmətlər qeyd edilmişdir:

- toxum və ting istehsalçılarının qeydiyyatı- Fermerlərə sertifikatlı toxum və tinglərin verilməsi üçün şəffaflıq təmin olunur.
- toxum subsidiyasının verilməsi - Əkin üçün subsidiya məbləğləri elektron qaydada hesablanır və ödənişlər sistem vasitəsilə həyata keçirilir;
- toxumların sortluq və səpin keyfiyyətlərinin təsdiqi - Sertifikat və vəsiqələrin verilməsi sistemdə qeydiyyata alınır;
- toxumluq və tinglik əkinlərdə aqrobasiyanın aparılması: Monitorinq və nəzarət mexanizmləri vasitəsilə subsidiya alanların fəaliyyətinə nəzarət olunur;
- arı subsidiyasının verilməsi- Hər arı ailəsinə görə dövlət dəstəyi şəffaf və sistemli şəkildə həyata keçirilir;

➢ əkin subsidiyasının verilməsi - Fermerlərin əkin sahəsi və istifadə etdikləri texniki vasitələr nəzərə alınaraq subsidiya məbləği müəyyən edilir;

➢ heyvan subsidiyasının verilməsi - Damazlıq heyvanların sayı və sağlamlıq göstəricilərinə əsasən ödənişlər EKTİS vasitəsilə həyata keçirilir;

➢ barama subsidiyasının verilməsi - İstehsal edilmiş yaş barama üzrə subsidiya məbləği sistemdə qeyd olunur;

➢ məhsul subsidiyasının verilməsi - Bitkiçilik və heyvandarlıq məhsulları üzrə subsidiya ödənişləri şəffaf, hesabatlı və vaxtında həyata keçirilir.

EKTİS subsidiyaların verilməsi prosesində şəffaflıq və hesabatlılığı təmin edir. Sistem elektron məlumat bazası və monitorinq imkanları vasitəsilə subsidiyaların düzgün paylanmasını təmin edir, fermerlərin maliyyə yükünü azaldır və dövlətin aqrar dəstək siyasətinin səmərəli icrasına şərait yaradır. Subsidiyaların mərkəzləşdirilmiş idarə edilməsi nəticəsində həm sahədə məhsuldarlıq artır, həm də resursların səmərəli istifadəsi təmin olunur. EKTİS kənd təsərrüfatı sahəsində dövlət dəstəyinin elektron, şəffaf və sistemli şəkildə həyata keçirilməsini təmin edir, fermerlərin hüquqlarını qoruyur və subsidiyaların düzgün paylanmasına nəzarət mexanizmini gücləndirir (https://www.agro.gov.az/az/ekt) .

**Respublikamızda kənd təsərrüfatının subsidiyalaşdırılması mexanizmləri**

Respublikamızda subsidiya mexanizmlərin hazırki vəziyyətindən danışmadan öncə diqqət yetirilməli əsas məqam "subsidiya mexanizmi" anlayışıdır. Subsidiya mexanizmi dedikdə dövlətin müəyyən sahələrdə xüsusilə kənd təsərrüfatı, sənaye və ya sosial sahələrdə məhsul istehsalçılarına və ya istehlakçılara maliyyə dəstəyi göstərmək üçün tətbiq etdiyi sistem nəzərdə tutulur.

**Sxem 1. Subsidiya mexanizminin funksiyaları**




***Mənbə:*** *https://e-qanun.az/framework/42750 əsasında müəllifin özü tərəfindən hazırlanmışdır.*

1. Məqsəd və istiqamətlərin müəyyən edilməsi

Dövlət hansı sahələrdə dəstək göstərəcəyini, hansı məhsulların və ya istehsalçıların subsidiya alacağını müəyyən edir. Məsələn, kənd təsərrüfatında toxum, gübrə, damazlıq heyvan və ya əkin sahələri üçün subsidiya verilə bilər.

2. Məbləğin hesablanması

Subsidiyanın miqdarı istehsalın həcmi, torpaq sahəsi, heyvanların sayı, məhsulun növü və digər faktorlar nəzərə alınmaqla müəyyən edilir. Bu hesablamalar şəffaf və ədalətli aparılmalıdır.

3. Subsidiyanın verilməsi

Mexanizm subsidiyanın verilmə formalarını təyin edir – nağd ödəniş, mal və ya xidmət şəklində ödəniş (məsələn, kənd təsərrüfatı texnikası və ya toxum şəklində).

4. Nəzarət və monitorinq

Subsidiyanın düzgün istifadə olunması üçün mexanizm nəzarət sistemi təmin edir. Fermerlərin və ya istehsalçıların məlumatları yoxlanılır, əgər subsidiyadan sui-istifadə aşkarlanarsa, ödəniş dayandırılır və ya məbləğ azaldılır.

5. Hesabatlılıq və şəffaflıq

Subsidiyanın verilməsi, miqdarı və alıcıların siyahısı açıqlanır. Bu, dövlət dəstəyinin düzgün və şəffaf aparılmasını təmin edir.

Sadə desək, subsidiya mexanizmi dövlət dəstəyinin planlaşdırılması, verilməsi və izlənməsi üçün qurulmuş sistemdir. Bu sistem fermerlərin məhsuldarlığını artırmağa, resursların səmərəli istifadəsini təmin etməyə və iqtisadi sahələrdə ədalətli dəstəyi həyata keçirməyə xidmət edir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı kənd təsərrüfatı sahəsində subsidiya mexanizminin təkmilləşdirilməsi və elektron sistem vasitəsilə şəffaf idarə olunmasını təmin etmək məqsədi daşıyır. Fərman kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsi üçün yeni mexanizmin əsasını təşkil edir. Bu mexanizm həm bitkiçilik, həm də heyvandarlıq sahələrində tətbiq olunur və bütün prosesin hesabatlı, şəffaf və səmərəli aparılmasını nəzərdə tutur.

Subsidiya mexanizmi dövlətin fermerlərə və tədarükçülərə maliyyə dəstəyi verməsi sistemidir. Burada əsas məqsəd kənd təsərrüfatı istehsalını stimullaşdırmaq, məhsuldarlığı artırmaq, ixracyönümlü və ərzaq təhlükəsizliyini təmin etməkdir. Subsidiya iki əsas formada tətbiq olunur: bitkiçilik sahəsində (əkin, dincə qoyulmuş torpaq, məhsul və toxum subsidiyaları) və heyvandarlıq sahəsində (heyvan, arı və barama subsidiyaları). Bitkiçilik sahəsində subsidiya, əsasən istifadə olunan torpaq sahəsinə və bitki növünə görə hesablanır. Fermerə verilən əkin subsidiyası, əvvəlcədən müəyyən edilmiş baza məbləği və əkin əmsalına görə hesablanır. Bu məbləğ həm kənd təsərrüfatı istehsal vasitələrinin (mineral gübrə, biohumus, sertifikatlı toxum və tinglər) alınması, həm də torpağın aqrokimyəvi analizi və aqrotexniki xidmətlər üçün istifadə olunur. Dincə qoyulmuş torpaq subsidiyası isə torpağın münbitliyini bərpa etmək və alaq otlarını azaltmaq məqsədilə bir il müddətinə verilir.

Məhsul subsidiyası, tədarükçülərə təhvil verilmiş məhsulun hər tonuna görə əlavə ödəniş şəklində tətbiq olunur, toxum subsidiyası isə sertifikatlı toxum və tinglərin satışına görə ödənilir. Heyvandarlıq sahəsində subsidiya, əsasən yerli heyvanların genetik potensialının artırılması və məhsuldarlığın yüksəldilməsi məqsədilə verilir. Burada süni mayalanma və embrion köçürməsi ilə alınan buzovlar və balaqlar üzrə subsidiyalar mövcuddur. Arıçılıqla məşğul olan fermerlər hər arı ailəsi üçün, barama istehsalçıları isə təhvil verdikləri yaş barama üzrə subsidiya alırlar. Heyvandarlıq subsidiyaları həm mütəxəssislərin sertifikatı, həm də heyvanların identifikasiyası və məlumatların elektron sistemə daxil edilməsi şərtlərinə bağlıdır. Fərman subsidiya mexanizminin elektronlaşdırılmasını əsas prioritet kimi müəyyən edir. Bu məqsədlə "EKTİS" yaradılmışdır. EKTİS vasitəsilə fermerlər, tədarükçülər və təchizatçılar müraciətlərini elektron qaydada təqdim edir, sənədlər yoxlanılır və ödənişlər avtomatik həyata keçirilir. SİS, həmçinin digər dövlət informasiya sistemləri ilə inteqrasiya olunmuşdur ki, bu da məlumatların dəqiq və şəffaf şəkildə toplanmasını təmin edir. Subsidiya ödənişlərinin bir hissəsi nağd, digər hissəsi isə kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün istifadə olunur. Subsidiya mexanizminin əsas prinsiplərindən biri monitorinq və qiymətləndirmədir. Fermerlərin bəyannamələri, torpaq sahələri və istehsal etdikləri məhsullar EKTİS-də toplanır.

Monitorinq çarpaz yoxlamalar, peyk və yerində müşahidələr yolu ilə aparılır. Əgər fermer tərəfindən bəyannamədə göstərilən məlumatlar faktiki vəziyyətlə üst-üstə düşmürsə, subsidiyanın məbləği azaldılır və ya ödəniş növbəti il üçün dayandırılır. Bu yanaşma dövlət büdcəsinin vəsaitlərinin səmərəli istifadəsini təmin edir.S ubsidiya verilməsi və istifadəsi zamanı hüquqi məsuliyyət də vacib yer tutur. Fermerlər subsidiya məbləğindən təyinatı üzrə istifadə etmədikdə və ya bilərəkdən yanlış məlumat daxil etdikdə, inzibati məsuliyyət daşıyır və növbəti illərdə

subsidiya almaq hüququndan məhrum edilir. Eyni zamanda, agentlik və digər dövlət qurumları subsidiya ödənişlərinin düzgünlüyünü izləyir.

Yeni mexanizmin digər əhəmiyyətli xüsusiyyəti fermerlər üçün müraciətlərin sadələşdirilməsi və elektronlaşdırılmasıdır. EKTİS -də qeydiyyatdan keçməyən fermerlər subsidiyaya müraciət edə bilməz. Fermerlər bütün məlumatları (torpaq sahəsinin xüsusiyyətləri, əkin sahəsi, istifadə olunan istehsal vasitələri və məhsul miqdarı) birbaşa sistemə daxil edir. Bu yanaşma həm şəffaflığı artırır, həm də kağız işini minimuma endirir. Subsidiyalar həmçinin kooperativlər və kənd təsərrüfatı birlikləri üçün stimullaşdırıcı amil kimi nəzərdə tutulmuşdur. 50 hektardan böyük sahələrdə fəaliyyət göstərən kooperativlərə əlavə 10% subsidiyanın verilməsi bunun nümunəsidir. Toxum və ting subsidiyaları isə ölkə daxilində istehsal olunan və sertifikatlı məhsulları təşviq etmək məqsədini daşıyır. Məhsulun sığortalanması mexanizmi də subsidiya sisteminə inteqrasiya olunmuşdur. Şura sığortalanmalı bitkilərin siyahısını təsdiq edir, və yalnız bu bitkilər üçün subsidiyalar sığorta müqaviləsi bağlandıqdan sonra ödənilir. Bu yanaşma həm fermerləri risklərdən qoruyur, həm də dövlət dəstəyinin səmərəliliyini artırır (https://e-qanun.az/framework/42750 ).

**NƏTİCƏ**

Azərbaycan Respublikasında kənd təsərrüfatının subsidiyalaşdırılması ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafını və ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə həyata keçirilir. Dövlət dəstəyi əsasən üç istiqamətdə göstərilir: vergi və gömrük güzəştləri, birbaşa dövlət subsidiyaları və damazlıq heyvanların güzəştlə lizinq yolu ilə satışı. Gömrük və vergi güzəştləri kənd təsərrüfatı texnikası, toxum, gübrə və digər istehsal vasitələrinin idxalını stimullaşdırır, fermerlərin maliyyə yükünü azaldır. Birbaşa subsidiyalar isə bitkiçilik və heyvandarlıq sahələrində məhsul və istehsal vasitələrinə yönəlir, nağd ödəniş və texnika alışı kimi formalarda həyata keçirilir. Damazlıq heyvanların lizinq yolu ilə satışı isə heyvandarlıq sahəsində keyfiyyətli damazlıq ehtiyatlarının təmin olunmasını və maliyyə yükünün azalmasını hədəfləyir. Subsidiya prosesinin şəffaf və operativ idarə olunması üçün "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi" (EKTİS) yaradılıb. Sistem vasitəsilə müraciətlər elektron qaydada təqdim olunur, ödənişlər avtomatik həyata keçirilir və monitorinq aparılır. EKTİS həmçinin məlumatların toplanması, analitik hesabatların hazırlanması və dövlət dəstəyinin səmərəliliyinin qiymətləndirilməsi üçün istifadə olunur. Yeni subsidiya mexanizmi fermerlərin məhsuldarlığını artırmaq, resursların səmərəli istifadəsini təmin etmək və iqtisadi sahələrdə ədalətli dəstəyi həyata keçirmək məqsədini daşıyır. Fermerlərin və digər iştirakçıların hüquqları qorunur, subsidiya vəsaitlərinin düzgün və şəffaf şəkildə paylanması təmin olunur. Bu mexanizmlər kənd təsərrüfatının davamlı inkişafına, ərzaq təhlükəsizliyinin təmin olunmasına və fermerlərin gəlirlərinin artırılmasına mühüm töhfə verir.

***İstifadə edilmiş ədəbiyyat:***


**1.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (n.d.). Dövlət dəstəyi. Agro.gov.az. https://www.agro.gov.az/az/doevlet-desteyi

**2.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (n.d.). Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS). Agro.gov.az. https://www.agro.gov.az/az/ekt

**3.** Azərbaycan Respublikası Nazirlər Kabineti. (2005, yanvar 31). Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin birgə qərarı. E-qanun.az. https://e-qanun.az/framework/15661

**4.** Azərbaycan Respublikası Nazirlər Kabineti. (2013, noyabr 26). Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə, yanacaq və motor yağları ilə təmin edilməsi qaydası. E-qanun.az. https://e-qanun.az/framework/15301

**5.** Azərbaycan Respublikası Nazirlər Kabineti. (2019, iyun 27). Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında. E-qanun.az. https://e-qanun.az/framework/42750

**6.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq. https://www.stat.gov.az/source/agriculture/

**7.** Fikrətzadə, F. & Babayeva, V. & Həsənzadə, Ə. (Dekabr 2022). "Azərbaycanda kənd təsərrüfatı innovasiyalarının tətbiqinin stimullaşdırılması ." Kənd təsərrifatı iqtisadiyyatı, N4 (42).

**V.Y.Asgarov**
*PhD candidate, Azerbaijan State University of Economics*
*ORCID 0009-0002-6673-7964*

## The current mechanism of agricultural subsidization in Azerbaijan

**Abstract**

*Agricultural subsidies play an important role in the state's economic policy and their main goal is to stimulate agricultural production, increase productivity, and ensure food security. Subsidies are divided into two main groups: consumer-oriented (reducing food prices) and producer-oriented (supporting production). In Azerbaijan, this support mechanism is implemented mainly in three directions: tax and customs concessions, direct state subsidies, and preferential sales of breeding animals. Tax and customs concessions are applied to the import of agricultural machinery, equipment, fertilizers, seeds, and animals. Direct state support covers subsidy payments in the fields of crop production and livestock breeding and is managed transparently through an electronic system. 50% preferential sales of breeding animals through leasing reduce the financial burden and encourage the use of quality animals. The "Electronic Agricultural Information System" (EKTIS) has been created for the prompt and transparent implementation of state support. EKTIS covers all stages of agriculture, tracks subsidy payments, monitors and increases the efficiency of state support. In Azerbaijan, the subsidy mechanism is implemented electronically, transparently and systematically in order to increase farmers' incomes, ensure efficient use of resources and support sustainable development in agriculture.*

***Keywords:*** *agriculture, subsidy amounts, modern mechanisms, state support.*